**ASLAN ASLANOV**

# DÖVLƏT SİYASƏTİNİN İNFORMASİYA TƏMİNATI

BAKI – 2013

Ç 61
A 93

262149

***Ümummilli lider Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf olunur***

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**Aslan Əhməd oğlu Aslanov**

Aslan Əhməd oğlu Aslanov – 1951-ci ildə Cəbrayıl rayonunda anadan olub. 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 30 ildən artıqdır ki, mətbuatda çalışır.

1975-ci ildən 1990-cı ilədək Ağcabədi, Zərdab, İmişli rayon qəzetlərində, 1990-cı ilin dekabrından 1992-ci ilin noyabrınadək "Xalq qəzeti"ndə işləyib. 1992-ci ildə AzərTAc-da müxbir kimi işə başlayıb, sonra baş redaktorun müavini və baş redaktor vəzifələrində çalışıb.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə AzərTAc-ın baş direktorunun birinci müavini təyin edilib. 2002-ci ilin oktyabrında Azərbaycan Prezidenti Heydər Əliyevin Fərmanı ilə AzərTAc-ın baş direktoru təyin olunub.

1993-2002-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərlərinin tam əksəriyyətində AzərTAc-ın xüsusi müxbiri kimi iştirak edib.

2000-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb, 2005-ci ildə "Tərəqqi" medalı, 2010-cu ildə "Vətənə xidmətə görə" ordeni, 2011-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" və Rusiya Federasiyasının "Dostluq" ordenləri ilə təltif olunub. Jurnalistika sahəsində Həsən bəy Zərdabi, "Qızıl qələm" və "Ali Media" mükafatlarının laureatıdır.

"Heydər Əliyev və AzərTAc", "AzərTAc-dan AzərTAc-a mürəkkəb və şərəfli yol", "AzərTAc-90" kitablarının, "Müasir dünyanın informasiya şəbəkəsində AzərTAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri" monoqrafiyasının, eyniadlı dərs vəsaitinin, eləcə də Azərbaycan mətbuatının problemlərinə həsr olunmuş onlarla elmi və publisistik məqalənin müəllifi, çoxsaylı kitabın redaktorudur.

1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 2007-ci il dekabrın 12-dən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) büro üzvüdür. 2004-cü ildə Moskvada, 2007-ci ildə Esteponada keçirilən Dünya İnformasiya Agentlikləri Konqresinin iştirakçısı olmuşdur.

2004-cü ildən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, 2006-cı ildən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının, 2009-cu ildən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının, 2010-cu ildən Rusiya Elmlər Akademiyası Rusiya Fəlsəfə Cəmiyyətinin üzvüdür. 2008-ci ildən Türkdilli Xəbər Agentlikləri Birliyinə sədrlik edir.

2011-ci il iyunun 13-də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan 14 ölkənin informasiya agentlikləri alyansının – BSANNA-nın prezidenti seçilmişdir.

Ailəlidir, bir oğlu var.

Ön sözün müəllifi | Nizami Cəfərov
AMEA-nın müxbir üzvü

Buraxılışa məsul və redaktor: | Dağbəyi İsmayılov
Əməkdar jurnalist

Tərtib edəni: | Bətul Eyvazlı
Əməkdar mədəniyyət işçisi

**Aslan Aslanov.** Dövlət siyasətinin informasiya təminatı. (məqalələr, çıxışlar, müsahibələr, rəylər, xatirələr) Bakı, "Şərq-Qərb", 2013, 620 səh.

Müasir Azərbaycan jurnalistikasında özünəməxsus yeri olan tanınmış jurnalist Aslan Aslanovun "Dövlət siyasətinin informasiya təminatı" kitabında müəllifin 1991-2011-ci illərdə dövri mətbuatda dərc olunmuş publisistik məqalələri, xarici ölkələrdə və respublikada keçirilmiş tədbirlərdə çıxışları, KİV-lərə müsahibələri, müxtəlif nəşrlərə rəy və ön sözləri, xatirələri toplanmışdır.

Kitabdakı materialların tam əksəriyyəti Azərbaycan tarixinin şanlı səhifəsi olan AzərTAc-ın – rəhbərlik etdiyi agentliyin fəaliyyətinə, onun bugünkü beynəlxalq əlaqələrinə, dövlət siyasətinin informasiya təminatındakı roluna həsr olunmuşdur.

Nəşrdə, həmçinin ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın son illərdə əldə etdiyi uğurların geniş coğrafiyada təbliği işində AzərTAc-ın əhəmiyyətli rolu vurğulanır.

Kitab jurnalistlər, bu sahədə çalışan mütəxəssislər, tələbələr və geniş oxucu kütləsi üçün maraqlı mənbədir.

ISBN 978-9952-34-947-4

© Aslan Aslanov, 2013

# MÜNDƏRİCAT

Ön söz ........ 15

**PUBLİSİSTİK MƏQALƏLƏR**

Dövlətin paytaxtından dünyanın humanitar paytaxtına doğru

İkinci Bakı Beynəlxalq Humanitar Forumuna sözardı ........ 19

Qəlbimiz bütün Avropa üçün açıqdır,
yaxud "Eurovision-2012" mahnı müsabiqəsi haqqında düşünərkən... ........ 27

Bakı dünyanın "Humanitar Davos"una çevrilir ........ 35

Dünyanı gözəllik xilas edəcək...
"Fransa inciləri" ilə tanışlıqdan yaranan düşüncələr ........ 43

İnkişafın Azərbaycan modelinin arxitekturasında mətbuatın yeri və rolu ........ 51

"Eurovision-2011" mahnı müsabiqəsindəki qələbə bütün Azərbaycanın uğurudur ........ 60

Azərbaycanın müasirləşməsi Heydər Əliyevin adı ilə bağlıdır ........ 66

Müasir innovasiyalardan istifadə: üstünlüklər və risklər ........ 75

Azərbaycan Prezidenti jurnalistlərin dostudur və ya "müstəqil" beynəlxalq
QHT-lərin "obyektivliyi" barədə bir neçə söz ........ 81

Akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü"
kitabı Ermənistanda getdikcə güclənməkdə olan dövlət faşizmi barədə
həyəcan təbilidir ........ 87

Düşmən dəyirmanına su tökənlərin cəzası daha ağır olur ........ 92

Ümummilli lider Heydər Əliyevə ən yaxşı abidə günbəgün
çiçəklənən Azərbaycandır ........ 98

Azərbaycan yeni informasiya məkanında ulu öndər Heydər Əliyevin
müəyyənləşdirdiyi prinsiplər əsasında möhkəmlənir ........ 103

AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının
carçısına çevrilmişdir ........ 112

İnformasiya həyat deməkdir ........ 128

Ümummilli lider Heydər Əliyevin ən güclü silahlarından biri söz idi ........ 135

Heydər Əliyev Azərbaycan mətbuatının böyük qayğıkeşi və himayəçisi idi ........ 150
AzərTAc dünya informasiya agentliklərinin vahid ailəsində ........ 160
Heydər Əliyevin siyasi irsi müasir Azərbaycan jurnalistikası üçün əbədi xəzinədir ........ 164
Qloballaşan dünyada informasiya hamı üçün ........ 171
Demokratik, azad mətbuatın inkişafında yeni mərhələ açan konsepsiya ........ 175
Heydər Əliyev və Azərbaycan mətbuatı ........ 177
Milli mətbuatımızın tarixində məktəb yaradan ustad ........ 184
Heydər Əliyev siyasətinin informasiya təminatı ........ 189
Azərbaycan milli mətbuatı inkişafının yeni mərhələsini yaşayır ........ 198
Ustad dərsi unudulmur... ........ 207
Azərbaycanın demokratik inkişafında yeni mərhələ ........ 212
Heydər Əliyev və AzərTAc ........ 221
AzərTAc-dan... AzərTAc-adək ........ 229
Dünyanı valeh edən əfsanəvi lider ........ 250
Azərbaycanı informasiya blokadasından Prezident Heydər Əliyev çıxarmışdır ........ 259
Prezident Heydər Əliyevin jurnalistika dərsi ........ 267
İqtisadiyyatsız siyasət yoxdur ........ 272
Cücəni payızda sayacağıq, qalsa... ........ 276
Yollar, a yollar... ........ 280
Qaradağ neftçilərindən Qarabağ döyüşçülərinə ........ 283
Ölümünə inanmıram ........ 286
Artan növbələr, dolu vaqonlar və yenə də gileylər, eyhamlar,
əsaslı-əsassız səbəblər ........ 287
Qiymətli... qiymətsiz kağızlar ........ 290
Fövqəladə tədbirlər görülməsə... ........ 294
"Stəkanlarınızı ehtiyatla işlədin..." ........ 298
"Abşeronun harayı", yoxsa... ........ 301
Çölə atırlar, bizə satmırlar və yaxud bolluğun astar üzü ........ 304
Qiymət artdı, avtobuslar azalır ........ 308
Kənd şəhərə arxadır ........ 310
Sınaq ... çıxış yoluna aparır ........ 314
"Ətalətə, qorxaqlığa üstün gəlməliyik..." ........ 318
Dönüş xeyrimizədir ........ 321

"Xeyri zərərindən çox olacaq..." ....... 326
Hər sətirdə sərt həqiqət ....... 329
Ətalət buzu əriyəcəkmi? ....... 334
Kooperativin acı almaları ....... 338
Abşeron... onu necə xilas etməli? ....... 342
Balıq niyə tükənib? ....... 344

**ÇIXIŞLAR**

Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 34-cü iclasında çıxış ....... 353
Erməni faşizminin və erməniliyin mahiyyətini ifşa edən kitab
*("Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi" kitabının təqdimat mərasimində çıxış)* ....... 356
Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltifolunma mərasimində çıxış ....... 359
Multimedia informasiya agentliklərinin işində yeni səhifədir
*(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış)* ....... 360
Sosial jurnalistika və yüksək texnologiyalar
*(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış)* ....... 366
Müstəqilliyimizin 20 illiyinə layiqli töhfə
*("Müasir Azərbaycan dövrün baxışında" kitabının təqdimat mərasimində çıxış)* ....... 368
İnformasiya cəmiyyətinə keçid mərhələsində mediatexnologiyanın yeri və rolu
*(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının – BSANNA-nın V Baş Assambleyasında çıxış)* ....... 371
Xəbər agentliyinin müştəri münasibətləri – təminatçıdan tərəfdaşa
*(Avropa Xəbər Agentlikləri Alyansının (EANA) konfransında çıxış)* ....... 376
Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunur
*("Müdriklik zirvəsi" kitabının təqdimat mərasimində çıxış)* ....... 379
Xəbər mediasının perspektivlərini müəyyənləşdirmək mühüm vəzifədir
*(Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XIV Baş Assambleyasında çıxış)* ....... 383
Müasir dünyanın inkişafında informasiyanın əhəmiyyəti və rolu
*(Dünya Xəbər Agentliklərinin üçüncü konqresində çıxış)* ....... 387
Xəbər agentlikləri və multimedia: AzərTAc-ın yeni xidməti
*(Avropa Xəbər Agentlikləri Alyansının konfransında çıxış)* ....... 393
15 iyun – Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir
*(Suraxanı rayonunda keçirilən konfransda çıxış)* ....... 395

Xəbər agentliklərinin gələcəyi
*(EANA-nın və MTİ-nin birgə konfransında çıxış)* ... 401

OANA-nın sammitində çıxış ... 403

Yüksək diqqət və qayğı yeni arzulara ruhlandırır
*(AzərTAc-ın əməkdaşlarına mükafatların təqdim edilməsi mərasimində çıxış)* ... 405

Anadolu Agentliyi ilə AzərTAc-ın əlaqələri qardaşlıq və dostluq təməlləri üzərində inkişaf edir
*(Anadolu Agentliyinin 90 illik yubileyi mərasimində çıxış)* ... 407

Azərbaycan qadını cəmiyyətin aparıcı qüvvəsidir
*("İnsanlar... Hadisələr... Zaman" kitabının təqdimat mərasimində çıxış)* ... 410

Xalqımızın azadlıq arzularının carçısı
*(AzərTAc-ın 90 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə çıxış)* ... 413

Müasir iqlim dəyişmələri və Azərbaycan
*(UNESCO-nun Moskva ofisi ilə AzərTAc-ın birgə seminarında çıxış)* ... 420

AzərTAc – Avropanın informasiya agentlikləri ailəsində
*(Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Baş Məclisinin iclasında çıxış)* ... 423

Dünya informasiya məkanına inteqrasiya başlıca vəzifədir
*(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) II konfransında çıxış)* ... 425

Qloballaşan dünyada informasiya hamı üçün
*(OANA İcraiyyə Komitəsinin 30-cu iclasında çıxış)* ... 429

Ukrinform-90: şərəfli yol
*(Ukrayna Milli İnformasiya Agentliyinin – Ukrinformun 90 illik yubiley mərasimində çıxış)* ... 436

Türkdilli agentliklərin Bakı görüşü
*(Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclasında çıxış)* ... 437

AzərTAc OANA-nın fəal üzvüdür
*(OANA-nın XIII Baş Assambleyasında çıxış)* ... 444

Dünya İnformasiya Agentliklərinin ikinci konqresində çıxış ... 447

Bütün türk xalqları üçün əlamətdar hadisə
*(Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VI iclasında çıxış)* ... 449

Ənənələr yaşayır, zənginləşir...
*(Akademik Mehdi Mehdizadə adına Cəbrayıl rayon orta məktəbinin 130 illik yubiley mərasimində çıxış)* ... 452

Yeni Azərbaycan Partiyasının mübariz dəstəsi
*(YAP Səbail rayon Təşkilatının VII konfransında çıxış)* ... 454

Ulu öndərimizin misilsiz xidmətləri milli tariximizin səhifəsinə qızıl hərflərlə yazılmışdır
*(Ümummilli lider Heydər Əliyevin*
*AzərTAc-ın binasında büstünün açılış mərasimində çıxış)* ..... 458

AzərTAc yeni regional qurumun təsisçilərindən biridir
*(BSANNA-nın üzvü olan Ölkələrin*
*Milli İnformasiya Agentlikləri Assosiasiyasının təsis konfransında çıxış)* ..... 462

Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir
*(Azərbaycanda İTAR-TASS günlərinin açılış mərasimində çıxış)* ..... 463

Beynəlxalq informasiya məkanına inteqrasiya AzərTAc-ın fəaliyyətinin
başlıca istiqamətidir
*(Dünya İnformasiya Agentliklərinin birinci konqresində çıxış)* ..... 468

Dahilər sırasında öz yeri, öz şöhrəti olan əfsanəvi şəxsiyyət
*("Dünyanı heyran qoyan insan" kitabının təqdimat mərasimində çıxış)* ..... 472

Agentlik jurnalisti münaqişə və gərginlik nöqtəsində
*(Dünya İnformasiya Agentliklərinin sammitində çıxış)* ..... 477

**MÜSAHİBƏLƏR**

Sosial şəbəkənin informasiyası xalq düşüncəsinə daha yaxındır,
yaxud informasiyanı başlı-başına buraxmaq olmaz ..... 483

Dünyanın informasiya məkanında layiqli yeri olan
Azərbaycanın uğurları diqqət mərkəzindədir ..... 493

Niyyətlər, perspektivlər, planlar ..... 500

Azərbaycan jurnalistikası – 135 il ..... 509

Azərbaycan mətbuatı bu gün ..... 511

Hansı informasiyanı almağa hazırıq? ..... 520

Şərqdə ilk demokratik respublikanın xalqımıza bəxş etdiyi ən dəyərli
milli sərvətlərdən biri də AzərTAc-dır ..... 525

Azadlıq arzularının carçısı ..... 534

Mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək qiymətləndirən
ikinci bir lider olmamışdır ..... 538

Yeni ildə yeni vəzifələr ..... 542

AzərTAc informasiyanı haradan alır? ..... 544

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması
AzərTAc-ın fəaliyyətinin əsas istiqamətidir ..... 550

AzərTAc yeni inkişaf yolundadır ..... 559

Azərbaycanın 85 illik şanlı tarixinin salnaməçisi ..... 564

AzərTAc-ın əsl dirçəliş dövrü Prezident Heydər Əliyevin adı ilə bağlıdır ..... 571

**RƏYLƏR, XATİRƏLƏR**

"İnsanlar...Hadisələr... Zaman" kitabına ön söz ........ 583

"Ədəbi redaktə: nəzəriyyə və təcrübə" kitabına ön söz ........ 585

Babam Aslan bəyin ruhu şad olsun!
*(Acılı-şirinli xatirələr)* ........ 594

Xatirəsi qəlbimizdə yaşayacaq insan haqqında düşüncələr ........ 602

Əsl bakılı, geniş qəlbli və möhkəm əqidəli insan ........ 607

Dost haqqında ürək sözləri ........ 610

Yaxşılıq heç vaxt unudulmur ........ 612

Öz dəst-xətti olan jurnalist ........ 616



*Bu gün Azərbaycan dövləti ölkə konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmış və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdr.*

Heydər Əliyev
Azərbaycan xalqının ümummilli lideri



*Biz Azərbaycanda elə bir mühit yaratmağa çalışırıq ki, bütün media qurumları özlərini azad hiss etsin, öz baxışlarını sərbəst ifadə edə bilsin. İnformasiya agentliklərinə gəldikdə isə, mən dövlət informasiya agentlikləri haqqında danışa bilərəm, onlar vəziyyəti real əks etdirir. Şərhlər fərqli ola bilər, siyasi analizlər tamamilə müxtəlif ola bilər, lakin informasiyanın özü dəqiq və səlis olmalıdır.*

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

## Ön söz

Hər bir kitabın mahiyyətini üç amillə qiymətləndirmək olar – məqsəd, məram və nəticə. Məqsəd aydın, məram saf olanda nəticə də uğurlu alınır. Tam məsuliyyətlə deyə bilərəm ki, tanınmış jurnalist Aslan Aslanovun oxucu ilə növbəti görüşü olan bu kitab da məqsədin aydınlığı, məramın saflığı və nəticənin əhəmiyyəti baxımından uğurludur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr olunmuş bu kitab müasir mətbuatın problemlərinin araşdırılması, massmedianın yeni istiqamətlərinin tədqiqi və öyrənilməsi ilə bağlı sanballı elmi məqalələrin, monoqrafiya və dərs vəsaitinin müəllifi olan A.Aslanovun yaradıcılıq yolunun müəyyən mərhələsinin yekunu kimi də dəyərləndirilə bilər.

Kitabda müəllifin müxtəlif illərdə qələmə aldığı analitik məqalələrin əksəriyyəti ulu öndərimiz Heydər Əliyevin mətbuatla bağlı problemlərə, o cümlədən AzərTAc-a göstərdiyi diqqət və qayğıya həsr olunmuşdur. Bununla bərabər müəllifin publisistik yazıları, reportajları, müsahibələri, səfər təəssüratları, xarici ölkələrdə və Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə çıxışları, ayrı-ayrı əsərlər barədə rəyləri ilə də tanış oluruq.

Kitabın tərtibatı da orijinallığı ilə diqqət çəkir. Belə ki, müəllif əvvəlcə müasir dövrün, sonra isə əvvəlki illərin siyasi, iqtisadi, sosial və elmi-mədəni mənzərəsi haqqında dolğun təsəvvür yaradan maraqlı yazılarla bu günlə keçmiş arasında uğurlu bir körpü salaraq oxucunu düşündürən maraqlı müqayisə yaradır.

Kitabda toplanmış yazıları tarix baxımından iki qrupa bölmək olar. Onların böyük əksəriyyəti müstəqillik dövründə, digər qismi isə sovet dönəminin son onilliyində qələmə alınmışdır. Fərqli tarixi dövrlərdə, çox müxtəlif mövzularda və hərəsi bir ovqatın təsiri altında yazılsa da, onlar bütün zamanlar üçün əhəmiyyətlidir. Bu da ondan irəli gəlir ki, A.Aslanov mövzunu dəqiq seçə, faktı görə və düzgün qiymətləndirə bilir. Müşahidənin dəqiqliyi, dilin rəvanlığı, təhlilin, fikrin və mülahizələrin orijinallığı istər analitik, istərsə də publisistik yazıların dəyərini artıran amillərdir. Bu mənada kitabdakı yazıları analitikanın və publisistikanın ən yaxşı nümunələri hesab etmək olar. Belə nümunələr yalnız və yalnız universal dünyagörüşlə peşəkarlığın vəhdətindən yaranır.

Jurnalist fəaliyyətinə əyalət qəzetinin müxbiri kimi başlayan Aslan Aslanov bu çətin peşənin bütün pillələrini keçərək, hazırda ölkə mediasının flaqmanı olan Azərbaycan Dövlət Teleqraf Agentliyinə - AzərTAc-a rəhbərlik edir. Kitabda yer almış materialların bir qismi bu agentliyin fəaliyyətinə, beynəlxalq əlaqələrinə, Azərbaycan həqiqətlərinin dünya informasiya məkanında daha geniş coğrafiyada yayılması ilə bağlı görülən işlərə, dövlət siyasətinin informasiya təminatında agentliyin roluna həsr olunmuşdur. Bu mövzuda yazıları və mötəbər beynəlxalq tədbirlərdə ənənəvi və yeni medianın aktual problemlərinə həsr olunmuş çıxışları oxuyanda müasir dünyanın informasiya məkanında baş verən proseslərin, sosial jurnalistikanın müsbət və mənfi cəhətlərinin geniş panoramı göz önündə canlanır. Bəzən oyun qaydalarının pozulduğu, bəzən obyektivlikdən uzaq, piar yazıların yer aldığı, eyni zamanda, internet əsrində yeni texnologiyaların yaratdığı inqilabi dəyişikliklər dalğası fonunda düzü əyridən seçmək, ucsuz-bucaqsız informasiya arealında öz yerini tapmaq heç də asan məsələ deyildir.

Müstəqil Azərbaycanın milli informasiya agentliyinin qazandığı nailiyyətləri, dünya informasiya məkanında geniş əlaqələr qurması, nüfuzlu beynəlxalq informasiya alyanslarının üzvü, bir neçəsinin isə təsisçisi olması, altı dildə həm yazılı, görüntülü və səsli xəbərlər hazırlayıb yayması, həm də innovativ yeniliklərin tətbiqinin sürətləndirilməsi barədə fikirlərə əsasən əminliklə deyə bilərəm ki, AzərTAc düzgün inkişaf yolu seçmişdir. Oxucu bu inkişafı müəllifin agentliyin fəaliyyətinə həsr etdiyi hər məqaləsinin, xarici ölkələrdə, beynəlxalq tədbirlərin mötəbər tribunalarından səslənən çıxışlarının hər sətrində hiss edir.

Əminəm ki, uğura aparan yolda yüksək peşəkarlığı yeni ideyalara, təşəbbüslərə açıq olmaqda, zamanın çağırışlarına həssas yanaşmaqda görən Aslan Aslanovun bu kitabı oxucular üçün maraqlı olacaqdır.

**Nizami Cəfərov**
**AMEA-nın müxbir üzvü**

262149

PUBLİSİSTİK MƏQALƏLƏR

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

## Dövlətin paytaxtından dünyanın humanitar paytaxtına doğru

*İkinci Bakı Beynəlxalq Humanitar Forumuna sözardı*

Bu il oktyabrın 4-5-də Bakıda İkinci Beynəlxalq Humanitar Forum keçirildi. Gündəliyində humanitariyanın daha aktual mövzularının yer alması, həm formatı, həm də iştirakçılarının sayının çoxluğu bu forumu fərqləndirən əsas amillər oldu. Bu forum paytaxt Bakının humanitar statusuna da yenilik gətirdi. Keçənilki forumun iştirakçılarının "Humanitar Davos" dedikləri Bakını builki forumun qonaqları "Dünyanın humanitar paytaxtı" adlandırdılar. Beynəlxalq aləmdə Bakı Forumuna marağın coğrafiyası və dinamikası da artıb. Bu dəfə Bakıya dünyanın 70 ölkəsini təmsil edən 700-dən çox nümayəndə - görkəmli siyasətçilər, ictimai xadimlər, alimlər, o cümlədən 11 Nobel mükafatı laureatı və 10 sabiq dövlət başçısı gəlmişdi. Bu, yalnız bir fakta dəlalət edir: Bakı Beynəlxalq Humanitar Forumu dünya ictimaiyyətinin diqqətini getdikcə daha çox cəlb edir və dünyanın qlobal problemlərinin müzakirə edilməsi, planetar miqyaslı humanitar gündəliyin işlənib hazırlanması üçün çox nüfuzlu məkana çevrilir.

Dünyada tüğyan edən iqtisadi böhran fonunda Azərbaycan dövlətinin böyük uğurları beynəlxalq birliyin diqqətini bu gənc dövlətə yönəldib. İndi nüfuzlu siyasi xadimlərdən bu sözləri tez-tez eşidirik: Cəmi iyirmi il bundan əvvəl özü iqtisadi və siyasi hərc-mərclik vəziyyətində olan, dünya dövlətləri ailəsində öz yerini tapmağa çalışan Azərbaycan artıq tam suveren siyasət yeridən müstəqil oyunçudur, dünyada ona hörmət edir, onunla hesablaşır, hətta məsləhətləşirlər. Bu gün Azərbaycan bazar iqtisadiyyatının arxitekturasında öz modelini yaradan, başqa ölkələrin iqtisadiyyatına sərmayə yatıran dövlətdir. Bu gün Azərbaycan beynəlxalq siyasətdə təcrübəsiz ölkə deyil, BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarda çoxlu qərar və qətnamələrin təşəbbüskarıdır. Bu gün Azərbaycan beynəlxalq müstəvidə sıravi debütant deyil, dünya səviyyəli tədbirlərə ev sahibliyi edən ölkədir. "Eurovision" mahnı müsabiqəsi, Beynəlxalq Humanitar Forum, 17 yaşa qədər qadınlar arasında futbol üzrə dünya çempionatı, İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısı, gələcək şahmat olimpiadası və s.

Gənc dövlətimizin müstəqil mövcudluğunun əvvəllərində skeptiklərin bədbin proqnozlarına, düşmən qüvvələrin fəal müqavimətinə rəğmən Azərbaycan bütün çətinlikləri dəf etdi, yeni cəmiyyət quruculuğuna transformasiya prosesindəki uğurları ilə beynəlxalq arenada etibarlı aktora çevrildi. Ona görə də iki il bundan əvvəl Azərbaycan və Rusiya prezidentlərinin himayədarlığı ilə yeni nüfuzlu beynəlxalq tədbirin – Bakı Humanitar Forumunun burada keçirilməsi elan ediləndə tanınmış şəxsiyyətlərin çoxu həmin forumda iştirak etmək arzusunda olduqlarını bildirdi. Foruma dəvət edilmiş dünya şöhrətli insanlar isə bu tədbirdə iştirak edib-etməyəcəklərini uzun-uzadı götür-qoy etmədilər. Bu, dövlətimizin sürətli inkişafının, dünyada onun nüfuzunun artmasının və ona böyük hörmətin nəticəsi idi. Bakıda keçirilən növbəti humanitar forumda çoxlu sayda məşhur insanın, o cümlədən keçmiş dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, məşhur alimlərin və mədəniyyət xadimlərinin, Nobel mükafatı və digər nüfuzlu mükafatların laureatlarının, aparıcı KİV rəhbərlərinin iştirak etməsi faktı forumun gündəliyinin, eləcə də iştirakçıların təqdim etdiyi, ətraflı müzakirəyə ehtiyacı olan məsələlərin aktuallığına dəlalət edirdi.

Yaşadığımız dünyada müxtəlif mədəniyyətlər arasında münasibətlərin tamamilə yeni formaları yaranır. Bəşəriyyətin dəyərlər sistemində struktur dəyişiklikləri baş verir. Sivilizasiyalar arasında dialoqun yeni mexanizmi formalaşır. Bu proseslər qloballaşmaqda olan dünya nizamının humanitar əsasını təşkil edir. Ümumbəşəri miqyaslı dəyərlərin təkamülü şəraitində elə yeni humanitar platforma yaranması zərurəti qarşıya çıxır ki, bu platforma üzərində sivilizasiyalar təmas nöqtələri tapsınlar, tamdəyərli, səmərəli dialoqa və qarşılıqlı anlaşmaya mane olan fərqləri aradan qaldırsınlar. Azərbaycan bu dəyişikliklərin diktə etdiyi mədəniyyətlərarası mübadiləyə ehtiyac olmasını vaxtında hiss edərək humanitar əməkdaşlığın yeni gündəliyinin işlənib hazırlanması təşəbbüsü ilə çıxış etdi.

Bu baxımdan İkinci Bakı Beynəlxalq Humanitar Forumu xüsusi əhəmiyyət kəsb etmiş və himayədarlar tərəfindən bu foruma həvalə edilmiş missiyanı – XXI əsrdə bəşəriyyətin üzləşdiyi qlobal çağırışlara cavablar axtarışı ilə məşğul olmaq, qarşıdakı onilliklər üçün strategiyanı müəyyən etmək vəzifəsinin öhdəsindən çox uğurla gəldi.

Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılış mərasimində proqram məzmunlu nitqi diskussiyalara istiqamət və fon verdi. Dövlətimizin başçısı son illərdə Qərbin çox etinasızlıqla üz döndərdiyi multikulturalizmin əhəmiyyətini vurğulayaraq demişdir: "Multikulturalizmlə bağlı son illər ərzində dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz isə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyillərini gücləndirmək üçün öz səylərimizi qoyaq". Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, multikulturalizmin alternativi yoxdur. Prezident demişdir: "Multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünütəcriddir. XXI əsrdə qloballaşan dünyada hesab etmirəm ki, hər hansı bir dövlət öz gələcəyini özünütəcrid prinsipləri əsasında qurmağa cəhd etsin". Dövlətimizin başçısının bu fikirlərinin ünvanlandığı auditoriyanı nəzərə alsaq deyə bilərik ki, bu sözlər əsrimizin humanitar manifesti kimi qəbul edilə bilər. Çünki multikulturalizm ideyası sayəsində bəşəriyyət anlamalıdır ki, biz hamımız vahid dünyada yaşayırıq və vahid bəşəriyyəti təmsil edirik. Dünyanın müxtəlifliyini dərk etmək və bərabərlik mədəniyyəti formalaşdırmaq lazımdır, çünki bu mədəniyyət sivil birgəyaşayışın əsasıdır. Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun haqlı olaraq qeyd etdiyi kimi, "biz özümüzün müxtəlif və bu müxtəlifliklərdə yekdil olmağımızı bəyan edən ümumi humanist prinsiplərə qayıtmağa borcluyuq".

Prezident İlham Əliyev nitqində müasir dövrün ən mühüm humanitar problemləri sırasında cəmiyyətlərdə təhsilin səviyyəsini vurğulamışdır. Təhsil hər bir cəmiyyəti irəliyə aparan amildir. Bu gün və xüsusən gələcəkdə intellektual potensialın istənilən ölkənin inkişafını müəyyən edəcəyini bildirən dövlətimizin başçısı belə bir məqama diqqəti cəlb etdi ki, təhsilin yüksək səviyyədə olduğu ölkələr mənfi proseslərlə az-az üzləşir və həmin ölkələrdə belə hallara qarşı mübarizə sivil şəkildə aparılır, problemlər müharibələrə, münaqişələrə və qan tökülməsinə gətirib çıxarmır. Azərbaycan dövlətinin başçısı milli-mədəni dəyərlərin qorunub saxlanmasının vacibliyi, onların ümumbəşəri dəyərlərə, başqa xalqların mədəniyyətinə, tarixinə və dininə hörmətin əsası olduğunu vurğulayaraq

demişdir: "Başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır". Bu sözlər bəşəriyyətin inkişafının indiki mərhələsində milli ideologiyanı özlərinin müstəsnalığı və üstünlüyü postulatları üzərində qurmağa çalışanlara ciddi xəbərdarlıqdır. Nəticə etibarilə bu cür yanaşma tamamilə səmərəsizdir və özünütəcridə gətirib çıxarır.

İkinci forumun əlamətdar xüsusiyyəti ondan ibarət idi ki, bu platformanın adına baxmayaraq, o, sırf humanitar müzakirələr çərçivəsindən çıxaraq bəşəriyyəti narahat edən problemlərin bütün spektrinin nəzərdən keçirildiyi bir məkana çevrildi. Bu baxımdan siyasətçilərin məsuliyyəti mövzusu xüsusi diqqətə layiqdir. Azərbaycan Prezidentinin nitqində də, plenar və "dəyirmi masa" iclaslarında da bu məsələyə toxunuldu. "Dünyada gedən ağrılı, yəni, narahatlıq doğuran proseslərin təməlində siyasətçilərin məsuliyyətsizliyi dayanır", - deyən Azərbaycan dövlətinin başçısı vurğuladı ki, bu məsuliyyətsizlik müxtəlif formalarda özünü büruzə verir. Bəzi siyasətçilərin təxribat xarakterli bəyanatları o qədər də yüksək savadı olmayan insanları hansısa aqressiv hərəkətlərə sövq edir, onların qeyri-real vədləri, populist çıxışları isə cəmiyyətlərdə haqlı narazılıqlara səbəb olur. Siyasi kateqoriyaya aid olan "siyasətçilərin məsuliyyəti" anlayışı, şübhəsiz, həm də humanitar məna kəsb edir. Hələ Platon deyirdi ki, hökmdarlar əsl filosoflar olmayınca, bəşəriyyət şərdən yaxa qurtara bilməyəcəkdir. Müasir dövrdə, internet əsrində dünyanın bir nöqtəsində deyilmiş hər hansı ehtiyatsız, məsuliyyətsiz söz və ya bu cür hərəkətlər tamamilə başqa nöqtədə rezonansa və əks-təsirə səbəb ola bilər.

Təsadüfi deyil ki, bir qədər bundan əvvəl öz ölkələrində və regionlarında siyasətin vektorunu müəyyən edən və fikirləri ilə dünyada çoxlarının hələ də hesablaşdığı 10 sabiq dövlət başçısının iştirakı ilə keçirilən forumun plenar iclasında siyasətçilərin məsuliyyəti məsələləri qızğın diskussiyalara səbəb olan mövzulardan biri idi. Litvanın sabiq prezidenti Valdas Adamkusun vurğuladığı kimi, siyasətçilər yeni humanitar aspektlərin məsuliyyətini öz üzərinə götürməli, bu məsələləri təhsilin, elmin, mədəniyyətin, kütləvi informasiya vasitələrinin köməyi ilə cəmiyyətin həyatına uyğunlaşdırmalıdırlar. O demişdir: "Biz zamanın üzərimizə qoyduğu məsuliyyətə etinasız yanaşa bilmərik". Tamamilə aşkardır ki, müasir dünyada, xüsusən maliyyə-

iqtisadi böhran nəticəsində lokal və qlobal münaqişələrin dərinləşdiyi bir dövrdə humanitariyanın yeni ideyalarının inkişaf etdirilməsi həyati zərurətə çevrilir. Bakı Beynəlxalq Humanitar Forumu bu aktual məsələnin öhdəsindən çox uğurla gəlir.

Dəyişməkdə olan beynəlxalq şəraitdə əməkdaşlığa və qarşılıqlı anlaşmaya rəvac verən müasir proseslər dünyanın müxtəlif regionlarında geniş miqyas alan qarşıdurma meyilləri ilə yanaşı, universitetlərin, elmlər akademiyalarının və müvafiq fondların elmi fəallığının episentrinə keçir. Bu halda elmin sürətli inkişafı yeni fənlərarası elmi paradiqmanın formalaşmasına gətirib çıxarır və bu proseslərin təhsildə öz əksini tapmasını zərurətə çevirir, yeni nəsillərdə dünyanın vahid, bütöv mənzərəsinin formalaşmasını tələb edir. Beləliklə, Bakı Forumunun bir məqsədi də onun iştirakçıları tərəfindən bu yeni proseslərin ilkin mərhələdə öyrənilməsinə yekun vurmaq idi.

Bu il növbəti forum çərçivəsində təşkil edilmiş tematik "dəyirmi masa"larda müxtəlif problemlər üzrə diskussiyalar aparıldı: "İqtisadi inkişafın humanitar aspektləri", "Konvergensiya edən texnologiyalar və gələcəyin konturları", "Müasir kütləvi informasiya vasitələri və yeni çağırışlar", "Postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemi", "XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar", "Müasir səhiyyəyə baxışları dəyişən texnologiyalar və molekulyar biologiya", "Multikulturalizm və mədəni özünüdərk". Müzakirələrin gedişində fəlsəfi və humanitar mövzulara toxunuldu, inkişafın müasir mərhələsində bəşəriyyətin üzləşdiyi suallar cavablandırıldı.

Keçən il olduğu kimi, bu dəfə də AzərTAc və İTAR-TASS agentlikləri forumun informasiya dəstəyini və kütləvi informasiya vasitələrində onun işıqlandırılmasını uğurla təmin etdilər. Bu iki məşhur agentlik "Müasir KİV-lər və yeni çağırışlar" mövzusunda "dəyirmi masa" keçirdi. Həmin "dəyirmi masa" çərçivəsində qloballaşma dövründə dünya siyasəti və sosial şəbəkələr, yeni minillikdə jurnalistikanın humanitar aspektləri, habelə sivilizasiyaların dialoqunda müasir KİV-lərin rolu məsələləri təhlil edildi.

Forumda toplaşmış ekspertlər müasir cəmiyyətin transformasiyasında sosial şəbəkələrin rolunun artmasını və onun dünya miqyasında siyasi proseslərə təsirini etiraf etdilər. Alimlər razılaşdılar ki, hamı üçün əlyetərli sosial media tərəfindən sıxışdırılan ənənəvi media bir qayda olaraq, "rafinə

edilmiş" informasiyanın geniş əhali təbəqələrinə çatdırılması məsələsində öz inhisarçı rolunu artıq itirməkdədir. Doğrudan da, müasir cəmiyyət artıq informasiyanın sırf passiv istehlakçısı deyildir və texnoloji innovasiyalar əsrində o, özü sosial şəbəkələr vasitəsilə informasiyanın istehsalçısına və yayıcısına çevrilir.

Forumda çıxış edən alimlər belə bir fikir söylədilər ki, insanların məhdud qrupu tərəfindən nəzarət edilən ənənəvi KİV-lərin köməyi ilə ictimai rəyin formalaşması və onun gözəgörünməz şəkildə idarə edilməsi cəmiyyətin özünün siyasətə və siyasi strukturların mövqeyinin formalaşmasına təsirinin artması ilə əvəz olunur. Diskussiyaların gedişində Qərb modelli liberal-demokratik şəbəkələrin səfərbəredici potensialı xüsusi qeyd edildi.

AzərTAc və İTAR-TASS tərəfindən təşkil edilmiş "dəyirmi masa"nın daha bir nəticəsi insanın mövcudluğu və salamatlığı ilə əlaqədar bütün bəşəriyyətin üzləşdiyi qlobal humanitar problemlərin aktuallaşması şəraitində müasir jurnalistikanın rolunun etiraf edilməsi oldu. İnsan həyatının, onun siyasi və qeyri-siyasi xarakterli əsas hüquqlarının qorunub saxlanması və yaxşılaşdırılması kimi geniş sahələrdə jurnalistikanın sosial məsuliyyətinin dərəcəsi barədə fikirlər söylənildi. Mədəniyyətlərarası kommunikasiyanın davamlı platforması və kanalı kimi müasir medianın xüsusi rolu dərk edildi. Yeni minillikdə dinlərarası və etnoslararası tolerantlıq, müxtəlif xalqlar, irqlər, mədəniyyətlər və sosial qruplar arasında qarşılıqlı anlaşma mövzusunun daha da aktuallaşdığı bir vaxtda məhz jurnalistika insanların daha yaxşı öyrənilməsi, onların bir-birini tanıması, aralarında yaxınlaşma və anlaşma yaranması, dözümlülüyün möhkəmlənməsi məsələlərində aparıcı rol oynayır. Bu məsələlər forum iştirakçılarının məruzələrində və müzakirələrdə öz əksini tapdı.

Forumun ümumi nəticələrinə gəldikdə isə deməliyik ki, beynəlxalq tədbirin iştirakçıları qloballaşma şəraitində multikulturalizm konsepsiyasına yeni həyat verilməsinin zəruriliyini və müasir cəmiyyətdə onun rolunun artmasını vurğuladılar. Dövlət siyasətinin tərkib hissəsi kimi multikulturalizmin imkanlarından istifadənin vacibliyini və onun həm müxtəlif mədəniyyətlərin inkişafı, həm də bütün bəşəriyyətin əldə etdiyi mədəni nailiyyətlərin qorunması və zənginləşməsində əhəmiyyəti qeyd olundu. Fo-

rum iştirakçıları multikulturalizm problemlərinin fəlsəfi və etik aspektlərinin bundan sonra tədqiqinin ksenofobiya, irqçilik və dözümsüzlüyün qarşısını almaq üçün kütləvi informasiya vasitələrində lazımınca işıqlandırılmasının vacibliyinə xüsusi diqqət yetirdi, dünya ictimaiyyətini, siyasətçiləri və alimləri beynəlxalq aləmdə multikulturalizm problemlərinin tədqiqi üzrə xüsusi mərkəzin yaradılması ilə bağlı Azərbaycanın təşəbbüsünü hamılıqla müdafiə etməyə çağırdılar. Forumda nano-, bio-, info- və koqnitiv texnologiyaların inkişafına və onlardan tətbiqi elmlərdə lazımınca istifadə edilməsi məsələsinə xüsusi diqqət yetirildi.

Forumda beynəlxalq qurumlara və müxtəlif humanitar təşkilatlara müraciətlə dövlətlər, vətəndaş cəmiyyətləri və konfessiyalar arasında tolerantlıq mühiti yaratmağa və sivilizasiyalararası münaqişələrin qarşısını almağa xidmət edən əsl mədəniyyətlərarası dialoqun gerçəkləşdirilməsi məqsədi ilə forumlar, konfranslar, müzakirələr və "dəyirmi masa"ların təşkilinə davamlı olaraq təşəbbüs göstərməyə çağırışlar səsləndi. Forumda qaldırılmış məsələlərin mütəmadi müzakirə edilməsinin zəruriliyinə əminlik beynəlxalq humanitar əməkdaşlığı təşviq etmək və bu istiqamətdə səylərin səmərəli əlaqələndirilməsi məqsədlərindən irəli gəlir.

Bakı Beynəlxalq Humanitar Forumunun nadir sayılan daha bir xüsusiyyətini qeyd etmək istərdim. Bu xüsusiyyət ondan ibarətdir ki, bəşəriyyətin üzləşdiyi aktual iqtisadi, sosial, ekoloji və texnoloji problemlərin humanitar cəhətlərini müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan, lakin bir məqsədlə - dünyamızı daha yaxşı, daha mükəmməl etmək naminə birləşmiş insanlar müzakirə edirdi. Bu da onu göstərir ki, zəruri hallarda dinc və təhlükəsiz gələcək naminə qüvvə və imkanları birləşdirmək olar. Bu mənada forum Şərq ilə Qərbin dialoqu, Bakı isə bəşəriyyətin gələcəyi barədə diskussiyalar mərkəzinə çevrilir və tədricən dünyanın humanitar paytaxtı statusu qazanır.

Forumun kuluarlarında dəfələrlə belə bir fikir səsləndi ki, bu nüfuzlu beynəlxalq tədbir artıq dünyanın təkcə mədəni-humanitar həyatında deyil, həm də siyasi həyatında əlamətdar hadisəyə çevrilir. Zənnimcə, forumda müzakirə edilən mövzuların aktuallığını və onlara ümumi marağı, habelə müasir mərhələdə siyasi və humanitar məsələlərin getdikcə daha çox çulğaşdığını nəzərə alsaq, bu fikir tamamilə təbiidir.

İkinci Bakı Beynəlxalq Forumu haqqında qeydlərimi bu nüfuzlu tədbirin təşkilat komitəsinin sədri, Azərbaycan paytaxtının qloballaşan dünyada humanitariyanın yeni trendini müəyyənləşdirən məkana çevrilməsində çox böyük əməyi olan tanınmış dövlət xadimi, görkəmli filosof alim, akademik Ramiz Mehdiyevin aşağıdakı fikirləri ilə yekunlaşdırmaq istəyirəm: Yeni dünya düzənində humanitar aspekt siyasətin ayrılmaz tərkib hissəsinə çevrilir, siyasət isə humanitar sahəyə təsir göstərir. Siyasəti ümumbəşəri maraq və dəyərlərin gerçəkləşməsinə doğru istiqamətləndirməklə onun humanistləşməsinə nail olmaq zəmanəmizin müasir çağırışlarından biridir. Bakı Beynəlxalq Humanitar Forumu da gələcəkdə bu qlobal məsələni həll etməlidir.

*"Kaspi" qəzeti, 23 oktyabr 2012-ci il,*
*"Azərbaycan", "Respublika",*
*"Yeni Azərbaycan", "İki sahil",*
*"Bakinski raboçi" qəzetləri, 24 oktyabr 2012-ci il,*
*"Azerbaydjanskiye izvestiya",*
*"Zerkalo" qəzetləri, 25 noyabr 2012-ci il.*

## Qəlbimiz bütün Avropa üçün açıqdır, yaxud "Eurovision-2012" mahnı müsabiqəsi haqqında düşünərkən...

Odlar yurdu. Bu adı möcüzələr diyarı Azərbaycana Yerin təkindən üzə çıxan alovun insanlara işıq və istilik bəxş etdiyi qədim dövrlərdə vermişlər. Yurdumuz kimi, insanlarımızın da qəlbi işıqlı, qanı isti, ürəyi odlu-alovludur. Azərbaycan xalqı bu ölkəyə saf niyyətlə və xoş məramla gələn hər kəsdən öz qəlbinin hərarətini, könül evinin işığını heç zaman əsirgəməmişdir.

Bu hisslər hər bir vətənpərvər azərbaycanlı üçün qürur mənbəyidir. Ona görə də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva başda olmaqla "Eurovision-2012" mahnı müsabiqəsinin təşkilatçıları bu tədbirin loqotipinin seçilməsində tərəddüd etmədilər: insanları birləşməyə, sülhə və həmrəyliyə çağıran "Öz məşəlini alovlandır!" devizi və odlu çiçək musiqi bayramının rəmzi oldu.

Azərbaycanın ev sahibi olduğu "Eurovision-2012" mahnı müsabiqəsi sayca 57-ci idi. 2011-ci ildə Almaniyanın Düsseldorf şəhərində keçirilən müsabiqənin finalında Eldar və Nigar dueti 221 xal toplayaraq birinci yeri tutandan sonra Azərbaycan növbəti müsabiqəyə ev sahibliyi hüququnu qazanmışdı. Bundan dərhal sonra paytaxt Bakıda "Eurovision" mahnı müsabiqəsinə ciddi hazırlıq işlərinə başlandı.

On beş gün Avropanın qəlbi Bakıda döyündü. Dünya musiqisevərləri "Eurovision-2012"nin mayın 22-də və 24-də yarımfinal, 26-da isə final mərhələlərinin unudulmaz həyəcanını yaşadılar.

Təbii ki, belə bir möhtəşəm tədbirin keçirilməsi ölkəmizin dünya miqyasında təqdim edilməsi, xalqımızın zəngin mədəniyyətinin, yurdumuzun gözəl təbiətinin, turizm potensialının təbliği üçün yeni imkanlar açdı, eyni zamanda, infrastrukturun inkişafına da ciddi təkan verdi. Azərbaycan onun qarşısında duran vəzifələrin öhdəsindən şərəflə gəldi. Çox qısa müddətdə Bakıda, Dövlət Bayrağı Meydanının yaxınlığında məxsusi olaraq "Eurovision-2012" mahnı müsabiqəsi üçün 23 min tamaşaçı tutan möhtəşəm "Baku Crystal Hall" Konsert Kompleksi inşa edildi. Bunlar həqiqətən böyük enerji, yüksək təşkilatçılıq, fədakarlıq, iradə, hünər və qətiyyət tələb edən işlər idi.